UOT 336

Xanoğlan Əndəlif oğlu HÜSEYNOV
Azərbaycan Kooperasiya Universiteti,
"Maliyyə və bank işi" kafedrasının dosenti, i.f.d.
E-mail: xanoglan.huseynov@aku.edu.az
https://doi.org/10.30546/4.71.73001.2025.004.348

AZƏRBAYCAN RESPUBLİKASININ DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFINDA MAKROİQTİSADİ SABİTLİYİN ROLU

Xülasə

Tədqiqatın məqsədi dayanıqlı və davamlı inkişafın təmin edilməsində makroiqtisadi sabitliyin rolunun araşdırılması və bu məqsədlə müvafiq tövsiyələrin verilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası: Məqalədə statistik metodlar, analiz, ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti: Məqalədə irəli sürülən tövsiyələrin tətbiqi ölkədə dayanıqlı və davamlı inkişafın təmin edilməsində faydalı ola bilər.

Tədqiqatın nəticələri: Dayanıqlı və davamlı inkişafın təmin edilməsində makroiqtisadi sabitliyin rolu və əhəmiyyəti qeyd edilmiş və bəzi tövsiyələr verilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Ölkəmizin dayanıqlı və davamlı inkişafı üçün makroiqtisadi sabitliyin təmin edilməsi yolları qeyd edilmişdir.

Açar sözlər: dayanıqlı və davamlı inkişaf, valyuta ehtiyatları, manatın sabitliyi, işsizlik, yoxsulluq, inflyasiya, neft-qaz və qeyri-neft sektoru.

Giriş

Dünyada baş verən iqtisadi proseslərə rəğmən dayanıqlı və davamlı inkişaf və onun təmin olunması problemləri elmi dairələrin, tədqiqatçıların və dövlətin daim diqqət mərkəzinə çevrilmişdir.

Müasir dövrdə dayanıqlı və davamlı inkişaf dövlətin fəaliyyətinin və makroiqtisadi proseslərin əsasını təşkil edir.

Hazırda ölkəmizin uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq iqtisadiyyatın dinamik inkişafını və rəqabətqabiliyyətliliyini yüksəltmək dövlətin qarşısında duran mühüm vəzifələrdən biridir.

Milli iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə respublikamızda reallaşdırılan iqtisadi siyasət çərçivəsində dayanıqlı və davamlı inkişaf, iqtisadiyyatın modernləşdirilməsi, makroiqtisadi sabitliyin möhkəmləndirilməsi və qeyri-neft sektorunun inkişafı sahəsində müxtəlif tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin icrası davamlı iqtisadi inkişafın təmin edilməsi üçün real zəmin yaratmışdır.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatı, turizm, emal sənayesi və informasiya-kommunikasiya texnologiyalarının və s. inkişafı prioritet təşkil edir.

Davamlı inkişaf ilk növbədə cəmiyyətdə yoxsulluğun və işsizliyin azaldılmasını nəzərdə tutur. BMT-nin təşəbbüsü ilə 2000-ci ildə keçirilmiş "Minilliyin Forumu"nda yoxsulluğun azaldılması məsələsinə xüsusi diqqət verilərək davamlı inkişafın əsas meyarı kimi qiymətləndirilmişdir.

İqtisadi inkişafın mühüm şərtlərindən biri səmərəli investisiya siyasətinin həyata keçirilməsindən ibarətdir. Bu baxımdan investisiyalar davamlı iqtisadi inkişafın təmin olunmasının əsas vasitələrindən biridir.

Ölkəmizdə səmərəli investisiya siyasətinin həyata keçirilməsi, investorların hüquqlarının qorunması, əlverişli investisiya mühitinin formalaşdırılması, makroiqtisadi sabitliyin təmin edilməsi sahəsində görülən tədbirlər investorların marağının təmin edilməsinə, xarici investorların cəlb edilməsinə və investisiya qoyuluşunun həcminin artmasına şərait yaratmışdır.

***

XX əsrin sonlarında dayanıqlı və davamlı cəmiyyətə keçid haqqında bir çox təlim və konsepsiyalar yaranmışdır. Hələ 1984-cü ildə BMT Baş Katibinin təşəbbüsü ilə BMT-nin nəzdində “Ətraf mühit və inkişaf” üzrə Beynəlxalq Komissiya yaradılmışdır. Komissiyanın əsas vəzifəsi dünya ölkələrinin davamlı inkişafını nəzərdə tutan ətraf mühit və inkişaf üzrə uzunmüddətli strateji proqram hazırlamaqdan ibarəti idi [4, s. 17-18].

1987-ci ildə 23 ölkənin ekspertlərinin köməyilə “Bizim umumi gələcəyimiz” adlı konsepsiya hazırlanmış və BMT-yə təqdim edilmişdir. Bu konsepsiyanın əsas məğzi “gələcək nəsillərin həyatını təhlükə altına qoymadan sosial, iqtisadi və ekoloji cəhətdən indiki nəsillərin tələbatının normal ödənilməsi”ndən ibarətdir. Məqsəd gələcək nəsillərin öz tələblərini yerinə yetirmək qabiliyyətinə xələl gətirmədən indiki ehtiyacı ödəməkdir [5, s. 191].

1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş ətraf mühit və inkişaf üzrə BMT-nin konfransı müasir cəmiyyətin davamlı inkişafa keçid konsepsiyasını qəbul etmişdir. Bu sənəd təkcə ərtaf mühitin mühafizəsilə məhdudlaşmır, eyni zamanda ayrı-ayrı ölkələrdə uzunmüddətli iqtisadi, sosial və ekoloji inkişaf strategiyasını nəzərdə tutan bütöv bir “Davamlı inkişaf” adlı konsepsiyanı təşkil edir.

Qəbul edilən sənədlərdən göründüyü kimi, əsas diqqət ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunub saxlanmasına yönəlsə də, bütövlükdə əsas istiqamət planetdə normal həyatın saxlanması, təbii iqtisadi resurslardan qənaətlə və səmərəli istifadəni əhatə edir.

BMT-nin konfransından sonra 2000-ci ildə “Minilliyin Forumu” keçirilmiş və bu Forumda iştirak edən dünyanın 147 ölkəsinin dövlət və hökumət nümayəndələri qlobal miqyasda davamlı inkişafa nail olmaq məqsədilə “Minilliyin Bəyannaməsi”ni qəbul etmişlər. O vaxt Azərbaycan dövlətinin başçısı kimi Ümummilli Lider Heydər Əliyev də bu Forumda çıxış edərək bu məsələyə öz münasibətini bildirmişdir.

“Minilliyin Bəyannaməsi”ndə dünya əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilən problemlərin həlli əsas prioritet kimi nəzərdə tutulmuşdur. Bu məqsədlər aşağıdakı kimi qruplaşdırılmışdır: ifrat yoxsulluğun və aclığın aradan qaldırılması; ümumi ibtidai təhsilə nail olmaq; gender bərabərliyini təmin etmək; uşaq ölümü hallarını azaltmaq; infeksiya xəstəliklərinə qarşı mübarizə aparmaq; ətraf mühitin davamlılığını təmin etmək; davamlı inkişaf üçün qlobal tərəfdaşlığı genişləndirmək [4, s. 36].

Bundan sonra dünya ölkələrində davamlı inkişafa keçid prosesinə başlanmış və 2015-ci ildə BMT-nin Baş Asambleyasının tövsiyəsilə Dünya Sammiti 2015-2030-cu illər üzrə 17 məqsəd irəli sürmüş və 193 ölkə davamlı inkişafla bağlı öhdəlik götürmüşdür.

Davamlı inkişafa dair aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, davamlı iqtisadi inkişaf resursların indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə, yəni indiki nəslin tələbatının gələcək nəsillərin tələbatı hesabına ödənilməməsi kimi ideyaya əsaslanır.

Davamlı inkişafın əsas problemləri iqtisadi inkişaf, yoxsulluq, işsizlik, ətraf mühitin mühafizəsi və ərzaq təhlükəsizliyidir [2, s. 20].

Prof. N.Müzəffərli yazır: “İqtisadiyyatın kənar mənfi təsirlərə müqavimət göstərmək qabiliyyəti dayanıqlı inkişafı, yalnız cari inkişaf məqsədlərinə deyil, həm də gələcək inkişaf imkanlarını kifayət qədər yüksək səviyyədə saxlamağa (təbii resursları və onlardan əldə olunan gəlirləri hazırkı və gələcək nəsillər arasında paylaşdırmaq baxımından) hədəflənən inkişafı davamlı inkişaf adlandıra bilərik” [3, s. 225-226].

Hazırda iqtisadi cəhətdən inkişaf etmiş bəzi ölkələrlə müqayisə edilən Azərbaycan Respublikasında yoxsulluğun və işsizliyin azaldılması, iqtisadi artım, təbiətin mühafizəsi kimi göstəricilər davamlı inkişafı şərtləndirən mühüm amillərdən birini təşkil edir.

Beynəlxalq konvensiyalara qoşulan, dünya təsərrüfatına inteqrasiya olunan Azərbaycanda yoxsulluqla mübarizə, işsizliyin azaldılması, iqtisadi artım sosial-iqtisadi siyasətin əsas məqsədinə çevrilmişdir.

Dövlət başçısı tərəfindən 20 fevral 2003-cü ildə təsdiq olunmuş “2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf” və 15 sentyabr 2008-ci

ildə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf” Dövlət Proqramları uğurla icra edilmişdir. Nəticədə ölkədə yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49%-dən 2005-ci ildə 29,3%-ə, 2010-cu ildə 9,4%-ə, 2016-cı ildə 5,9%-ə, 2018-ci ildə 5,1%-ə düşmüşdür. Bu göstərici 2020-ci ildə 6,2%, 2021-ci ildə isə 5,9% təşkil etmişdir [4, s. 37].

Respublikamızda davamlı iqtisadi inkişaf üzrə strateji məqsədlərə nail olunması, səmərəli investisiya siyasətinin həyata keçirilməsi və investisiyaların iqtisadi inkişafa cəlb edilməsində əlverişli investisiya mühitinin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər nəticəsində Dünya Bankı tərəfindən hazırlanan “Doing Business 2020” hesabatına görə ölkəmiz dünyanın 20 ən islahatçı ölkələri sırasında yer almışdır. Kreditlərin alınması üzrə 190 ölkə arasında birinci, biznesə başlama üzrə doqquzuncu olmuşdur.

2003-cü illə müqayisədə iqtisadiyyata yönəldilən investisiyaların ümumi həcmi 3,7 dəfə, o cümlədən xarici investisiyalar 2,7 dəfə, strateji valyuta ehtiyatları 41 dəfədən çox artaraq 01 iyul 2023-cü ildə 65 mlrd. dollara çatmışdır. Bu dövrdə pensiyaların orta məbləği 8 dəfə, minimum əməkhaqqı 4,5 dəfədən çox artmışdır. Ölkədə 1,5 milyondan çox yeni iş yerləri açılmış, yoxsulluğun səviyyəsi 49,0 faizdən 5,9 faizə düşmüşdür.

Təcrübə göstərir ki, xarici investorlar investisiya qoyuluşlarını həyata keçirən zaman əsasən risklərin üç növünü – makroiqtisadi sabitliyi (iqtisadi artımı, inflyasiya səviyyəsini və valyuta məzənnəsinin dəyişilməsini və s.), investisiya mühitinin və vergi qaydalarının dəyişməsini, iqtisadiyyatın tənzimlənməsini və korrupsiya səviyyəsini, ölkədə siyasi sabitliyi və s. nəzərə alırlar [4, s. 164-165].

Ölkəmizdə hər üç istiqamətdə lazımi tədbirlər həyata keçirilmiş və investorların cəlb edilməsi üçün əlverişli şərait yaradılmışdır. Manatın sabitliyi təmin edilmiş, ölkənin valyuta ehtiyatları artmış, tədiyyə balansının müsbət saldosu çoxalmışdır. Təkcə 2024-cü ildə ölkənin valyuta ehtiyatları 5 mlrd. dollardan çox artaraq 72 mlrd. dollara çatmışdır [7, s. 16].

Ümumi daxili məhsulda qeyri-neft sektorunun payı xeyli artmış, ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığı azalmışdır. Belə ki, 2022-ci ilə nisbətən 2023-cü ildə neft-qaz sektorunun həcmi 1,7% azaldığı halda, qeyri-neft qaz sektorunun həcmi 3,7% artmışdır ki, bu da ümumi daxili məhsulun həcmində qeyri-neft qaz sektorunun xüsusi çəkisinin 2022-ci ildəki 52,1%-dən 2023-cü ildə 63,1%-ə qalxmasına şərait yaratmışdır. 2025-ci ildə ÜDM-də qeyri-neft sektorunun 75%-dən çox olacağı nəzərdə tutulur [7, s. 6].

Ölkə iqtisadiyyatına yönəldilən daxili və xarici investisiyaların həcmi ildən-ilə artmışdır ki, bu da ölkənin dayanıqlı və davamlı inkişafı üçün əlverişli şərait yaradır. Bunu aşağıdakı cədvəl məlumatlarından daha aydın görmək olar (cədvəl 1).

Cədvəl 1.

2015-2023-cü illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların həcmi

Göstəricilər	2015	2020	2021	2022	2023	2015-ci ilə nisbətən 2023-cü ildə
Cəmi (mln. man.)	20057,4	22484,0	25313,8	29135,1	32080,9	1,6 dəfə
O cümlədən						
Xarici investisiyalar (mln. man.)	10998,9	10413,2	12751,9	14879,3	14671,2	1,3 dəfə
Xüsusi çəkisi, %-lə	54,8	46,3	50,3	51,1	45,7	-9,1
Daxili investisiyalar (mln. man.)	9058,5	12070,8	12561,9	14255,8	17409,7	1,9
Xüsusi çəkisi, %-lə	45,2	53,7	49,6	48,9	54,3	+9,1

Mənbə: www.stat.gov.az (9, s. 789)

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunun həcmi ildən-ilə artaraq 2023-cü ildə 32,1 mlrd. manata çatmışdır ki, bu da 2015-ci ilə nisbətən 1,6 dəfə və ya 60% çoxdur. Eyni zamanda son dörd ildə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinə 19 mlrd. manat vəsait yönəldilmiş, 2025-ci ilin dövlət büdcəsində isə bu məqsəd üçün 4 mlrd. manat vəsait nəzərdə tutulmuşdur [7, s. 6].

Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə üçün əsas kapitala 2023-cü ildə 595,0 mln. manat vəsait yönəldilmişdir ki, bu da 2022-ci ilə nisbətən 3,7 dəfə çoxdur. Cari ilin dövlət büdcəsində 17%-dən çox investisiya xərcləri nəzərdə tutulmuşdur [7, s. 6].

İqtisadiyyata investisiya qoyuluşunun həcminin artması iqtisadi artıma, yeni iş yerlərinin açılmasına, işsizliyin azalmasına müsbət təsir etmişdir. Bunu aşağıdakı cədvəl məlumatlarından daha aydın görmək olar (cədvəl 2).

Cədvəl 2.

Göstəricilər	2020	2021	2022	2023	2024
1. Ümumi daxili məhsulun artım tempi, %-lə, əvvəlki ilə nisbətən	95,8	105,6	104,7	101,1	104,1
2. İşsizliyin səviyyəsi, %-lə	79	6,0	5,7	5,5	5,4
3. Yoxsulluğun səviyyəsi, %-lə	6,2	5,9	5,5	5,2	5,0
4. Orta aylıq nominal əməkhaqqı (manatla)	707,7	732,1	840,0	933,9	996,8
5. Orta aylıq əməkhaqqının artım tempi, əvvəlki ilə nisbətən, %-lə	111,4	103,4	114,7	111,2	108,0
6. İstehlak qiymətləri indeksi, əvvəlki ilə nisbətən, %-lə	102,8	106,7	113,9	108,3	102,2

Mənbə: www.stat.gov.az (9, s. 55-56, 83, 163, 300) [9, s. 2].

Cədvəldən göründüyü kimi ölkəmizdə əhalinin həyat səviyyəsi əvvəlki illərə nisbətən yüksəlmiş, işsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşmüş, əhalinin gəlirləri artmışdır. Belə ki, 2023-cü ildə respublikamızda işsizliyin səviyyəsi 5,5%, yoxsulluğun səviyyəsi 5,2% təşkil etmiş, istehlak qiymətlərinin 8,3% artımına qarşı orta aylıq əməkhaqqı 11,2% artmış və ya orta aylıq əmək haqqı istehlak qiymətlərinin artımını 30%-ə qədər üstələmişdir. 2025-ci ilin yanvar ayından minimum əməkhaqqı 55 manat artaraq 400 manata, minimum pensiya isə 40 manat artaraq 320 manata çatmış və ya orta hesabla 14-15% artmışdır [7, s. 1]. “Dayanıqlı inkişaf 2023” hesabatına görə Azərbaycan 73,5 bal toplayaraq 166 ölkə arasında 53-cü pillədə qərarlaşmışdır [1, s. 184].

İqtisadi artım həyat səviyyəsinin yüksəldilməsi üçün vacib şərtdir. İqtisadiyyat böyüdükcə iş yerlərinin sayı artır, işsizlik azalır, gəlirlər artır və yoxsulluğun səviyyəsi aşağı düşür. Səhiyyəyə və təhsilə sərmayə qoymağa imkan yaranır [5, s. 193].

İşğaldan azad olan torpaqlarda həyata keçirilən quruculuq işləri ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafına və bu sahədə müəyyən uğurların əldə olunmasına şərait yaradacaqdır. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən biri olan işğaldan azad olmuş ərazilərə “Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı”nın icrası bu sahədə müsbət nəticələrin əldə olunmasını təmin edəcək, işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial dirçəlişini təmin etməklə dayanıqlı və davamlı inkişafa əsaslanan rəqabətqabiliyyətli sahələrin inkişafına, təbii sərvətlərin səmərəli və qənaətli istifadəsinə və ətraf mühitin mühafizəsinə əsaslanan ekoloji təhlükəsizliyin təmin olunmasına, işsizliyin və yoxsulluğun azaldılmasına şərait yaradacaqdır.

Qarşıya qoyulan layihələrin həyata keçirilməsi məqsədilə 2021-2023-cü illərin Dövlət Büdcəsindən işğaldan azad olunmuş ərazilərə 12,1 mlrd. manat vəsait ayrılmışdır [1, s. 246].

Lakin bütün bunlarla yanaşı dünyada baş verən iqtisadi proseslər və qiymətlərin artması ölkə

iqtisadiyyatına da öz mənfi təsirini göstərmişdir. Belə ki, son illər qeyri-neft-qaz sektorunun inkişaf tempi neft-qaz sektorunun inkişafını dəfələrlə üstələsə də (2024-cü ildə müvafiq olaraq 7,3% və 0,5% olmuşdur) ölkə iqtisadiyyatının idxaldan asılılığı hələ də qalmaqda davam edir. Neft-qaz sektoru ixracın 90%-ə qədərini təşkil edir ki, bu da ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafının beynəlxalq bazarda neft-qazın qiymətindən asılı olduğunu göstərir. Ölkə iqtisadiyyatının diversifikasiyası sahəsində bir sıra tədbirlərin görülməsinə baxmayaraq bu sahədə hələ də kifayət qədər uğur əldə edilməmişdir.

Dayanıqlı inkişaf üçün əsas vacib məsələ iqtisadiyyatın perspektiv inkişaf istiqamətləri üzrə hədəflərin düzgün seçilməsi və həmin hədəflərə uyğun strategiyanın formalaşması hesab olunur [6, s. 202].

Ölkə üzrə investisiya qoyuluşlarının iqtisadiyyatın ayrı-ayrı sahələri və regionlar üzrə paylanmasında da disproporsiyalar mövcuddur. Belə ki, vəsaitlərin əsas hissəsi Bakı şəhəri və ona yaxın ərazilərin payına düşür. Xarici investisiyalı müəssisələrin qeyri-neft sektorunda və digər regionlarda fəaliyyətinin təmin edilməsi üçün dövlət səviyyəsində tənzimləmə və təşviq tədbirlərinin gücləndirilməsinə ehtiyac vardır.

Bildiyimiz kimi respublikamız zəngin təbii sərvətlərə, xammal potensialına və əmək ehtiyatlarına malikdir ki, bu resursların dövriyyəyə cəlb edilməsilə ölkənin xarici bazarlara çıxış imkanlarını xeyli artırmaq olar.

Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatı, turizm, emal sənayesi və informasiya-kommunikasiya texnologiyaları və s. prioritet təşkil edir. Ölkəmizdə məşğul əhalinin 40%-ə qədəri bilavasitə kənd təsərrüfatı və turizm sahələrində çalışır. Lakin 2024-cü ilin statistik məlumatlarına görə bu sahələrin inkişafında hələ kifayət qədər yüksək nailiyyətlər əldə edilməmişdir. Belə ki, 2024-cü ildə ümumi daxili məhsul istehsalında kənd və meşə təsərrüfatının payı 5,7%, turizm xidməti 2,4%, informasiya və rabitə sahəsi isə 1,9% təşkil etmişdir. [8, s. 2]

Nəticə

Dayanıqlı və davamlı inkişafa dair aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, davamlı iqtisadi inkişaf resursların indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə, yəni indiki nəslin tələbatının gələcək nəsillərin tələbatı hesabına ödənilməsi kimi ideyaya əsaslanır.

Davamlı inkişafın əsas problemləri iqtisadi inkişaf, yoxsulluq, işsizlik, ətraf mühitin mühafizəsi və ərzaq təhlükəsizliyidir.

İqtisadi cəhətdən inkişaf etmiş bəzi ölkələrlə müqayisə edilən Azərbaycan Respublikasında yoxsulluğun və işsizliyin azaldılması, iqtisadi artım və ətraf mühitin mühafizəsi kimi göstəricilər dayanıqlı və davamlı inkişafı şərtləndirən mühüm amillərdən birini təşkil edir. Yoxsulluqla mübarizə, işsizliyin azaldılması, iqtisadi artım sosial-iqtisadi siyasətin əsas məqsədinə çevrilmişdir.

Səmərəli investisiya siyasətinin həyata keçirilməsi, biznes mühitinin yaxşılaşdırılması, makroiqtisadi sabitliyin təmin edilməsi nəticəsində iqtisadiyyata yönəldilən investisiyaların həcmi 2003-cü ilə nisbətən 3,7 dəfə, o cümlədən xarici investisiyalar 2,7 dəfə artmışdır. Ümumi daxili məhsulda qeyri-neft sektorunun payı xeyli artmış, ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığı azalmışdır.

Yoxsulluğun səviyyəsinin aşağı salınması və işsizliyin azaldılması ilə əlaqədar qəbul edilmiş Dövlət Proqramlarının icrası nəticəsində 2003-2023-cü illərdə yoxsulluğun səviyyəsi 49%-dən 5,2%-ə, işsizliyin səviyyəsi isə 5,5%-ə düşmüş, orta aylıq əməkhaqqı 933,9 manata çatmışdır.

Lakin bütün bunlarla yanaşı dünyada baş verən iqtisadi proseslər və qiymətlərin artması ölkə iqtisadiyyatına da öz mənfi təsirini göstərmişdir. Belə ki, son illər qeyri-neft sektorunun inkişaf tempi neft-qaz sektorunun inkişafını xeyli üstələsə də (2024-cü ildə müvafiq olaraq 7,3% və 0,5% təşkil etmişdir) ölkə iqtisadiyyatının idxaldan asılılığı hələ də qalmaqda davam edir. Neft-qaz sektoru ixracın 90%-ə qədərini təşkil edir ki, bu da hələ də ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafının beynəlxalq bazarda neft-qazın qiymətindən asılı olduğunu göstərir.

Ölkə iqtisadiyyatının diversifikasiyası sahəsində bir sıra tədbirlərin görülməsinə baxmayaraq

hələ də bu sahədə lazımi uğur əldə edilməmişdir. Belə ki, 2024-cü ildə Ümumi daxili məhsul istehsalında kənd təsərrüfatının payı 5,7%, turizm xidməti 2,4%, rabitə və informasiya texnologiyaları 1,9% təşkil etmişdir.

ƏDƏBİYYAT

1. Azərbayan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2024.
2. Ə.Nuriyev. Davamlı və tarazlı regional inkişaf. Bakı, 2017.
3. N.Müzəffərli. İqtisadiyyatın sosialyönümlülüyü sağçı və solçu sistemlərdə. Bakı, 2014.
4. E.İbrahimov. Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafının strateji istiqamətləri. “Kooperasiya” nəşriyyatı. Bakı, 2023.
5. K.Büyüker. Davamlı inkişaf təşəbbüslərinin iqtisadi artıma təsiri. “Kooperasiya” elmi-praktiki jurnalı, 2024, № 3.
6. S.Məmmədov. Milli iqtisadiyyatın strukturunda həyata keçirilən şaxələndirmənin dayanıqlı inkişafın təmin edilməsində rolu. “Kooperasiya” elmi-praktiki jurnalı, 2024, № 3.
7. “Respublika” qəzeti, 28 yanvar, 2025-ci il, s. 1,6.
8. “Azərbaycan” qəzeti, 26 yanvar, 2025-ci il.
9. www.stat.gov.az
10. www.cbar.gov.az

Ханоглан Андалиф оглы Гусейнов
Азербайджанский Университет Кооперации, доцент
E-mail: xanoglan.huseynov@aku.edu.az

Роль макроэкономической стабильности в устойчивом и долгосрочном развитии Азербайджанской Республики

Резюме

Цель исследования изучение роли макроэкономической стабильности в обеспечении устойчивого и долгосрочного развития и предоставление соответствующих рекомендаций для этой цели.

Методология исследования. В статье использованы статистические методы, методы анализа и обобщения.

Прикладная значимость исследования. Реализация рекомендаций, выдвинутых в статье, может быть полезна для обеспечения устойчивого и стабильного развития страны.

Результаты исследования выявили пути обеспечения макроэкономической стабильности для обеспечения устойчивого и стабильного развития.

Оригинальность и научная новизна исследования. Намечены пути обеспечения макроэкономической стабильности для устойчивого и стабильного развития нашей страны.

Ключевые слова: устойчивое и непрерывное развитие, валютные резервы, стабильность маната, безработица, нищета, инфляция, нефтегазовый и ненефтяной секторы

Khanoglan Andalif Huseynov
Azerbaijan Cooperation University, Associate Professor
E-mail: xanoglan.huseynov@aku.edu.az

The role of macroeconomic stability in the sustainable and ongoing development of the Republic of Azerbaijan

Summary

The purpose of the study is to investigate the role of macroeconomic stability in ensuring sustainable and ongoing development and to make appropriate recommendations for this purpose.

Research methodology. The article uses statistical, analysis and generalization methods. Practical significance of the study.

The implementation of recommendations provided in the article can be useful in ensuring sustainable and ongoing (continuous) development in the country.

Research results indicate ways to ensure macroeconomic stability for the achievement of sustainable and ongoing development.

Originality and scientific novelty of the study. The study highlights ways of ensuring macroeconomic stability for sustainable and ongoing development of our country.

Keywords: sustainable and ongoing (continuous) development, foreign exchange reserves, stability of manat, unemployment, poverty, inflation, oil and gas and non-oil sectors.